# Korrupsiyaya qarşı mübarizə Azərbaycanda dönməz xarakter alıb

***Azərbaycan Prezidenti İlham Əliyevin xalq arasında getdikcə daha böyük dəstək qazanması günümüzün reallığıdır. Bunu dövlət başçısının hakimiyyətdə olduğu illərdə gördüyü nəhəng işlər, apardığı genişmiqyaslı sosial-iqtisadi islahatlar, eləcə də ordumuzun gücləndirilməsi, Ermənistana sarsıdıcı zərbələr endirilməsindən və digər istiqamətlərdə atdığı addımlardan görmək olur.***



Son vaxtlar Sosial Tədqiqatlar Mərkəzi (STM) dövri olaraq "İnam indeksi" nəşrinin xüsusi buraxılışında ölkə başçısının fəaliyyətinin ictimai qiymətləndirilməsini həyata keçirir, Prezident İlham Əliyevin fəaliyyəti, həyata keçirdiyi genişmiqyaslı sosial-iqtisadi və xarici siyasət kursunun həyatımızdakı yeri, eləcə də qarşıya qoyulan hədəflərlə bağlı elmi təhlillər aparır.

Nəşrin üçüncü buraxılışı Azərbaycan Prezidentinin bu ilin ikinci rübündəki fəaliyyətinə həsr edilib. Elmi təhlillər nəticəsində gəlinən nəticə bundan ibarətdir ki, Prezident İlham Əliyev özünün ictimai-siyasi, sosial-iqtisadi sahələrdə geniş və çoxşaxəli fəaliyyəti ilə ölkə ictimaiyyətinin böyük etimadını qazanıb. Aparılmış sosioloji sorğu əsasında hazırlanmış analitik hesabatda ölkə Prezidentinin bəhs edilən müddətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinə ictimai münasibətin monitorinqi, əvvəlki dövrlə müqayisəli dinamikası və təhlili öz ifadəsini tapıb.

İctimai rəy sorğusunun nəticələrinə əsasən, son dövrlərdə uğur qazanan və sınaqdan çıxan dünya dövlətləri arasında Azərbaycan ilk yerlərdən birini tutur. Ölkədə xüsusilə son dövrlərdə korrupsiyaya qarşı mübarizə intensiv xarakter alıb. Həyata keçirilən həm kadr islahatlarının, həm də institusional islahatların əsas hədəflərindən biri də, məhz, korrupsiya hallarının qarşısının alınmasından ibarətdir. Bu istiqamətdə ölkə Prezidentinin fəaliyyəti 56,1 faiz respondent tərəfindən çox səmərəli, 27,2 faiz respondent tərəfindən isə əsasən səmərəli qiymətləndirilib.

Bununla yanaşı, hesabatda qeyd edilir ki, korrupsiyaya qarşı mübarizə sahəsində cəmiyyətdə hələ müəyyən gözləntilərin qaldığı müşahidə olunur. Belə ki, rəyi soruşulanların 12,3 faizi sözügedən istiqamətdə görülən işlərin səmərəliliyini artırmaq lüzumu bildirilib. 4,4 faiz respondent isə fikir bildirməkdə çətinlik çəkib. Korrupsiyaya qarşı mübarizə istiqamətində həyata keçirilən fəaliyyətə müsbət münasibət bildirən 56,1 faiz respondentin 36,5 faizi Nazirlər Kabinetinə, 33,4 faizi isə Milli Məclisə etibar etdiyini qeyd edib.

Məsələ bundadır ki, Prezident İlham Əliyev gənc kadrların yeni vəzifələrə təyin olunması ilə bağlı keçirdiyi görüşlərdə dəfələrlə bəyan edib ki, korrupsiya və rüşvətxorluqla mübarizə Azərbaycanda dönməz xarakter alıb. Dövlət başçısının tövsiyələri həmişə bundan ibarət olub ki, məmurlar xalqın xidmətçisidir, insanların qayğı və ehtiyacları ilə maraqlanmaq, onlara kömək etmək, həmişə xalqın yanında olmaq, təmiz işləmək lazımdır. Üstəlik, korrupsiyaya bulaşmış məmurlara qarşı görülən islahedici tədbirlər də ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. İnanırıq ki, Prezidentin şəxsi təşəbbüsü ilə başlanmış korrupsiyaya qarşı mübarizə getdikcə daha çox öz bəhrəsini verəcək.

***Hüseyn İBRAHİMOV,***
***AMEA-nın Fəlsəfə İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru***